# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin aparatının və onun yerli qurumlarının ştat cədvəllərinin təsdiq edilməsi haqqında” 2010-cu il 20 aprel tarixli 50 nömrəli, “Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin tabeliyində Biləv Su Elektrik Stansiyasının yaradılması və ştat cədvəlinin təsdiq edilməsi haqqında” 2010-cu il 15 oktyabr tarixli 92 nömrəli, “Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Vahid Tarif Cədvəlinin təsdiq olunması haqqında” 2010-cu il 18 noyabr tarixli 110 nömrəli, “Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşları haqqında” 2010-cu il 18 noyabr tarixli 111 nömrəli qərarlarında dəyişiklik edilməsi və “Arıçılıq sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2010-cu il 2 fevral tarixli 9 nömrəli, “Patent hüququnun girov qoyulması barədə müqavilələrin qeydiyyata alınması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2010-cu il 3 mart tarixli 27 nömrəli, “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 78 nömrəli qərarı ilə təsdiq edilmiş “Avtomobil yollarında yol göstəricilərinin yerləşdirilməsi Qaydaları”nın Naxçıvan Muxtar Respublikasında icrasının təmin edilməsi barədə” 2010-cu il 11 may tarixli 54 nömrəli, “Ekoloji təmiz kənd təsərrüfatının elmi təminatının həyata keçirilməsi Qaydaları”nın təsdiq edilməsi barədə” 2010-cu il 13 sentyabr tarixli 79 nömrəli, “Naxçıvanqaz” İstehsalat Birliyinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” 2010-cu il 3 noyabr tarixli 105 nömrəli qərarlarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin IV hissəsini və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin aparatının və onun yerli qurumlarının ştat cədvəllərinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 20 aprel tarixli 50 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

2. “Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin tabeliyində Biləv Su Elektrik Stansiyasının yaradılması və ştat cədvəlinin təsdiq edilməsi haqqında” Naxçıvan

Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 15 oktyabr tarixli 92 nömrəli Qərarının 2-ci hissəsi ləğv edilsin.

3. “Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Vahid Tarif Cədvəlinin təsdiq olunması haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 18 noyabr tarixli 110 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

4. “Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşları haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 18 noyabr tarixli 111 nömrəli Qərarının 1-ci və 2-ci hissələri ləğv edilsin.

5. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarları ləğv edilsin:

5.1. “Arıçılıq sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 2 fevral tarixli 9 nömrəli Qərarı;

5.2. “Patent hüququnun girov qoyulması barədə müqavilələrin qeydiyyata alınması Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 mart tarixli 27 nömrəli Qərarı;

5.3. “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 78 nömrəli qərarı ilə təsdiq edilmiş “Avtomobil yollarında yol göstəricilərinin yerləşdirilməsi Qaydaları”nın Naxçıvan Muxtar Respublikasında icrasının təmin edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 11 may tarixli 54 nömrəli Qərarı;

5.4. “Ekoloji təmiz kənd təsərrüfatının elmi təminatının həyata keçirilməsi Qaydaları”nın təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 13 sentyabr tarixli 79 nömrəli Qərarı;

5.5. “Naxçıvanqaz” İstehsalat Birliyinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 noyabr tarixli 105 nömrəli Qərarı.

6. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Ceyhun Cəlilov**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 23 ” “ oktyabr ” 2025-ci il

№ 51